**«QHT-lər əhali arasında maarifləndirmə işini gücləndirməlidir»**

Media və İctimai Təşəbbüslər Mərkəzinin rəhbəri Samir Əliyev demişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyəti təkcə vergi xidməti  əməkdaşlarının peşə hazırlığının artırılması deyil, işgüzar dairələrin bir araya gətirilməsi baxımından da əhəmiyyətlidir: «Tədris Mərkəzində təşkil olunmuş seminar ölkədə nağdsız dövriyyənin həcminin artırılması sahəsində qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və bəzi çətinliklərin aradan qaldırılması baxımından son dərəcə vacibdir. Bu gün burada qaldırılan məsələlər olduqca aktualdır. Çünki nağdsız ödənişlərin inkişafı hökumət üçün prioritet məsələlərdən biridir. Məqsəd, ilk növbədə, ölkədə vergidən yayınma hallarının qarşısını almaq, vergitutma bazasını genişləndirmək, vergi yığımı sahəsində vəziyyətin optimallaşdırılmasını təmin etməkdir. Hesab edirəm ki, prosesi sürətləndirmək üçün vacib məsələlərdən biri də QHT-lərin əhali arasında maarifləndirmə işini gücləndirməsidir».

Samir Əliyev əlavə etmişdir ki, nağdsız ödənişlərin təbliği məqsədilə aidiyyəti dövlət qurumları ilə yanaşı, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları da fəal iş aparmalıdırlar: «Seminarın keçirilməsində əsas məqsəd də dövlət qurumları, prosessinq mərkəzləri və qeyri-hökumət təşkilatlarının bu sahədəki səylərini artırmaqdır. Vətəndaş cəmiyyəti qurumlarının isə əsas vəzifəsi xarici ölkələrin təcrübəsini öyrənmək və hökumətə səmərəli təkliflər verməkdir».